Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

United Nations
Educational, Scientific and
Cultural Organization

Information
for All
Programme

YUNESKO-nun
«İnformasiya hamı üçün»
Proqramının
Azərbaycan
Komitəsi

C.Cabbarlı adına
Respublika Gənclər
Kitabxanası

# AZƏRBAYCAN KİTABXANALARI MODERNLƏŞMƏ YOLLARINDA

*(Sorğu materialları əsasında)*

«APOSTROFF»
BAKI – 2012

**UDK 021**
**BBK 78.3**
**M22**

Tərtibçi-müəllif: **t.e.n. Lətifə Məmmədova**

Elmi məsləhətçi: **prof. Abuzər Xələfov**

Rəyçi: **h.e.n. Əli Eyvazov**

Mətnin redaktorları: **Samir Abbasov, Əfsun Əhmədov**

Buraxılışa məsul: **Tahir Sadıqov**

A99 **AZƏRBAYCAN KİTABXANALARI MODERNLƏŞMƏ YOLLARINDA.** Bakı, **«APOSTROFF»,** 2012, 76 səh.

**İSBN 978-9952-404-41-8**

Təqdim olunan kitab informasiya cəmiyyətinin əsas xüsusiyyətləri və bu prosesdə kitabxanaların mürəkkəb rolundan bəhs edir. Müstəqillik əldə edəndən sonra Azərbaycanın kitabxana sektorunda müsbət dəyişikliklər baş vermişdir. Kitabxanalarımız informasiya müəssisələrinə çevrilərək yeni iş üsulları tətbiq edirlər. Bu proseslər aparılan sorğu çərçivəsində müəyyənləşdirilmişdir. Araşdırmanın gedişində cəmiyyətdə oxucuların mütaliəyə münasibəti, kitabxanaçıların və kitabxana rəhbərlərinin fikirləri öyrənilmişdir. Tədqiqat ictimaiyyətdə və dövlət orqanlarında böyük marağa səbəb olmuşdur.

Sorğu əsasında Azərbaycan kitabxanalarının reallığı, meyilləri və gələcək inkişaf istiqamətləri, perspektivləri müəyyənləşdirilir.

Kitab dövlət orqanlarında çalışan məmurlar və mütəxəssislər, kitabxanaçılar, oxucular, ictimai təşkilatlar, qeyri-hökumət təşkilatları, humanitar fondlar və s. üçün maraqlı ola bilər.

***Kitabın istifadəsi ilə bağlı bütün müstəsna hüquqlar müəllifə məxsusdur.***

Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdən biridir...

Kitabxanaya, burada çalışan insanlara hörmət və ehtiramımı bildirmək istəyirəm.

***Heydər ƏLİYEV,***
***Azərbaycan xalqının ümummilli lideri***

* * *

Azərbaycan kitabxanaları Azərbaycan xalqının milli sərvətidir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

* * *

***Müasir kitabxana – informasiya sistemi informasiya resurslarını cəmiyyət üçün toplamaq və yaymaq funksiyasını həyata keçirir.***

## ÖN SÖZ

Cəmiyyətdə informasiyanın həcminin sürətlə artması XX əsrin ikinci yarısı XXI əsrin əvvəllərində get-gedə daha çox nəzərə çarpmağa başlamışdı. Əvvəllər misli görünməmiş və haqlı olaraq, çox vaxt «informasiya partlayışı» adlandırılan bu hal bizim sivilizasiyanın yeni inkişaf mərhələsinə keçməsinin əsas əlamətlərindən biri, bəşəriyyətin inkişafmda yeni bir dövrün - informasiya erasının başlanğıcıdır.

Mütəxəssislər informasiya cəmiyyətinin aşağıdakı əsas fərqləndirici cəhətlərini qeyd edirlər:

- bu cəmiyyətin hər bir üzvü ona lazım olan informasiyadan istifadə edə bilir;
- cəmiyyət özünün hər bir üzvünü informasiya texnologiyası ilə təmin etməyə qadirdir;
- konkret zamandan və məkandan asılı olmayaraq cəmiyyət onun həyat fəaliyyəti üçün zəruri olan bütün informasiyanı istehsal etməyə qadirdir.

Pessimist proqnozlara baxmayaraq, informasiya cəmiyyəti şəraitində kitabxanaların fəaliyyəti yeni inkişaf mərhələsindədir. İnformasiya cəmiyyətində kitabxanalar istənilən yaşda insanlar üçün bilik və fasiləsiz təhsil mənbəyinə, vətəndaşların istər ictimai həyatda və istərsə də dövlətin idarə olunmasında fəal iştirak etməsi vasitəsinə, bütün fəaliyyət sahələrində kadrların hazırlanması və onlann ixtisasının artırılması vasitəsinə çevrilirlər. İnformasiya cəmiyyəti kontekstində kitabxanamn əsas məqsədi - zamandan və məkandan asılı olmayaraq, hər bir istifadəçinin istənilən tipli informasiyaya müraciət imkanının təmin edilməsindən ibarət olıır.

İnformasiya cəmiyyətinin formalaşması dövründə kütləvi kitabxanaların rolu müstəsna dərəcədə artır. Bu kitabxanalar vətəndaşların informasiya cəmiyyətinin üstünlüklərindən istifadə

etmələrinə, onların informasiyadan və biliklərdən bəhrələnmək hüquqlarımn həyata keçirilməsinə kömək etməlidirlər. İxtisaslı, məsuliyyətli və xeyirxah kitabxanaçı - istifadəçi ilə informasiya arasında vasitəçidir. Müasir kitabxanaçı informasiya resurslarının axtarılması və seçilməsi məsələsinin həllinə kömək etməlidir.

İnformasiya cəmiyyətinə keçid kifayət qədər mürəkkəb və çoxcəhətli prosesdir. Bu prosesin inkişafı ictimai şüurun müəyyən mənada yenidən qurulması ilə bağlıdır. Azərbaycanda bu proses artıq başlanıb: Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 6 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş «Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı»nın həyata keçirilməsi üzrə Tədbirlər Planı təsdiq edilib. Müasir kitabxanalarda informasiyanın toplanması, saxlanması və paylaşdırılması vasitələrinin və metodlarının təkmilləşdirilməsi ilə yanaşı, informasiya axtarışı və informasiyanın işlənməsi vasitələri də modernləşdirilməlidir. Şübhə yoxdur ki, İnternet şəbəkəsinə qoşulmaq imkanı olan müasir kitabxana özünün informasiya mənbələrinin sayını artırmaq və istifadəçilərin sorğularını təmin etmək üçün daha geniş imkanlar qazanır. Ölkəmizin kitabxanalarında İnternet-mərkəzlər (zallar, siniflər), internetə müraciət mərkəzləri, elektron informasiya vasitələri qəbilindən olan informasiya xidmətləri təqdim edən xüsusi bölmələr yaradılması baxımından mühüm işlər həyata keçirilir. Artıq respublikanın bütün şəhər, rayon mərkəzi kitabxanalarının Veb-saytı yaradılmış və oxucuların istifadəsinə verilmişdir.

Respublikanın şəhər və rayonlarında kitabxanaların avtomatlaşdırılmış kitabxana-informasiya sistemləri ilə təchiz olunması istiqamətində mühüm işlər görülmüş, demək olar ki, kütləvi kitabxanaların 50%-də Elektron kataloğun yaradılması işinə başlanmışdır.

Bu gün tamamilə haqlı olaraq bu qənatə gəlmək olar ki, kitabxanaların gələcəyin milli və beynəlxalq şəbəkələr yaradıl-

ması yolu ilə kataloqlardan, sənədlərdən istifadənin təmin edilməsi və kommunikasiyaların təkmilləşdirilməsi amilləri ilə şərtlənir.

İnformasiyalaşma, yəni informasiyadan inkişaf resursu kimi daha tam istifadə edilməsi əsasında insanın və cəmiyyətin bütün intellektual-humanist həyat fəaliyyətinin yenidən qurulması ilə əlaqədar, insanın informasiya mədəniyyətinin formalaşmasının əhəmiyyətini nəzərəçarpacaq dərəcədə artmışdır. İnformasiya sahəsində baş verən texnoloji inqilab isə bəşər sivilizasiyasının bütün inkişafının gedişinə çox güclü təsir göstərir. Bu gün artıq heç kəs şübhə etmir ki, həyatın keyfiyyəti get-gedə daha artıq dərəcədə informasiyadan, onun operativ tapılmasından və istifadə edilməsindən asılıdır. Cəmiyyətin və şəxsiyyətin informasiya mədəniyyəti insanın fasiləsiz təhsil almaq imkanının və qəbul etdiyi qərarlar məsuliyyətin  artmasını təmin etməlidir. Qeyd edildiyi kimi, kitabxanalar informasiya mədəniyyətinin formalaşmasında xüsusi, unikal rol oynayır. Yeni informasiya texnologiyaları kitabxanalar qarşısında çox geniş imkanlar açmış, onları prinsipcə yeni məsələlər həll etmək zərurəti qarşısında qoymuşdur. Bu texnologiyaların mənimsənilməsi kitabxanaların cəmiyyətdəki rolu və yeri barədə fundamental təsəvvürlərin, kitabxana işinin təşkilinin əsas prinsiplərinin yenidən nəzərdən keçirilməsi ilə, kitabxana işinin inkişaf paradiqmasının dəyişməsi ilə nəticələnmişdir. Bu proseslər qlobal xarakter daşıyır və Azərbaycan kitabxanaları da həmin proseslərə qoşulur.

Bir mühüm faktı xüsusi qeyd etməyə dəyər ki, bu gün Azərbaycan cəmiyyətində kitabxanaların sosial rolu təkamül edir. Kitabxanaların maarifçilik xarakterli ənənəvi funksiyalarına indi milli və beynəlxalq informasiya şəbəkələrinə və məlumat banklarına müraciət etməyə imkan verən informasiya mərkəzlərinə xas olan funksiyalar da əlavə edilir.

Zamanın tələbi belədir ki, kitabxanadaxili ənənəvi texnologiyalar və kitabxanaların əhaliyə xidmət formaları dəyişməli-

dir. Bu gün kitabxanaların rolu xeyli mürəkkəbləşir. Onlar polifunksional müəssisələrə çevrilməlidir. Bu, nədən irəli gəlir? İlk növbədə ondan irəli gəlir ki, kitabxanalar cəmiyyətdə yaranmış sosial boşluqları doldurmalı və vaxtilə başqa təşkilatlara - hazırda ya yoxa çıxmış, ya da fəaliyyət profillərini dəyişmiş mədəni-maarif və tərbiyəvi yönümlü təşkilatlara xas olan vəzifələri indi onlar öz üzərinə götürməlidirlər.

Azərbaycan müstəqillik əldə edəndən sonra cəmiyyətdə çox böyük dəyişikliklər baş vermişdir. Cəmiyyət tamamilə başqalaşmışdır. Bununla əlaqədar, kitabxanalar, kitabxanaçılar və oxucular da dəyişir. İndi kitabxanalar hər bir kəsin dünyada mövcud olan bütün informasiya mənbələrindən istifadə etməsini təmin etməlidirlər. Lakin onlar bu funksiyanı yerinə yetirməyi bacarırlarmı və buna hazırdırlarmı? Bu suallara cavab vermək məqsədilə, Azərbaycan kitabxanalarmın inkişaf paradiqmasının dəyişdiyi bir şəraitdə kitabxanalarm vəziyyətini öyrənmək məqsədilə Azərbaycanın bir sıra şəhər və rayonlarında araşdırma aparılmışdır.

Yeri gəlmişkən qeyd etmək istiərdik ki, dunyanın bir sıra məşhur kitabxanaları müxtəlif təşkilatların himayəsindədir. Kitabxana işi məsələsində dünyanın aparıcı dövləti olan ABŞ-da kitabxanalara sponsorluq edilməsi öz yerində, kitabxanalar üçün ianələr vermək ənənəsinin də yüz ildən artıq tarixi vardır. Bizdə isə müxtəlif təşkilatlar tərəfindən kitabxanalara yardım edilməsi halları, təəssüf ki, epizodik xarakter daşıyır. İnformasiya cəmiyyəti şəraitində kitabxanalar qarşısında duran məsələlərin sayının artması bizim cəmiyyətdə lazımınca dərk edilmir. Etiraf etmək lazımdır ki, kitabxanalar özləri də maliyyə resurslarından istifadə etmək uğrunda mübarizənin sirlərini hələ lazımınca öyrənməyiblər, onlar heç də həmişə qarşılaşdıqları məsələlərin mürəkkəbliyini, bütövlükdə cəmiyyətin mənafeyi naminə həmin məsələləri həll etməyin zəruri olmasını hakimiyyət strukturları və müxtəlif təşkilatlar qarşısında inandırıcı şəkildə açıqlamaları bacarmırlar.

Apardığımız tədqiqat göstərdi ki, Azərbaycandakı kitabxanaların çoxunda oxucuların sayı praktiki olaraq minimuma enmişdir, buna görə də yeni tipli kitabxanalar - biznes-kitabxanalar, kitabxana-muzeylər, kitabxana-kafelər yaranması məqsədəuyğun hesab edilə bilər. Onlar hazırda müxtəlif səbəblər üzündən kitabxanalara getməyən əhalini tədricən kitab mədəniyyətinə cəlb edə bilər.

Ümid etmək istərdim ki, bu tədqiqatın materialları kitabxana işçilərinə və kitabxanaların problemləri ilə məşğul olan bütün insanlara kömək edəcək, onlar müxtəlif kitabxanaların fəaliyyətinin müqayisəli təhlili yolu ilə bu sahədə yaranmış vəziyyətdən baş çıxaracaq və bu da öz növbəsində, ölkəmizdəki kitabxanaların nüfuzunun yüksəlməsinə, onların imkanlarının üzə çıxarılmasına şərait yaradacaqdır. Bununla bərabər, qeyd etmək lazımdır ki, Azərbaycanda ümumi kitabxana sosial institutunun inkişaf perspektivləri ilk növbədə, tamdəyərli millətin mövcud olması üçün hamının istifadə edə biləcəyi kitabxanaların vacibliyinin bütün səviyyələrdə dərk edilməsindən asılıdır.

Milli razılıq yolu - biliklərdən və informasiyadan hamının istifadə edə bilməsi yoludur. Bu məsələnin həllində isə kitabxanalar çox mühüm rol oynayır.

Ön sözü Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin aşağıdakı sözləri ilə tamamlamaq istərdim «kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir».

Ümid etmək istərdim ki, yaxın gələcəkdə bizim kitabxanalar da müstəqil Azərbaycanın uğurlarının rəhninə çevriləcəklər.

# KİTABXANA YENİ ƏSRDƏ

## G İ R İ Ş

Dünya miqyasında informasiya inqilabı baş vermişdir. Bu inqilab bütövlükdə cəmiyyətin və ayrı-ayrılıqda hər bir insanın həyatında böyük dəyişikliklərə səbəb olur. Qlobal informasiya inqilabı müxtəlif və rəngarəng informasiyanın yaranması, saxlanması, ötürülməsi və qavranması ilə bağlı imkanlarımızı əsaslı şəkildə dəyişdirir. İnternet şəbəkəsi informasiya pərakəndəliyinə son qoyur, hər bir istifadəçinin onu maraqlandıran informasiyanı tapmasına və öz informasiyasını planetin istənilən güşəsində olan başqa istifadəçiyə ötürməyə, onunla dialoqa girməyə imkan verir və ümumdünya informasiya məkanı yaradır.

Hər bir ölkənin gələcəyi informasiya cəmiyyətinin verdiyi imkanlardan istifadə etmək, yoxsa bu imkana məhəl qoymamaq seçimindən birbaşa asılıdır. «Əgər biz öz şansımızı əldən versək, yeni xidmətlər təqdim edən və buna görə də daha yüksək rəqabət qabiliyyətinə malik olan başqa ölkələrdən geri qalarıq. Biz özümüzün yox, başqalarmın istehsal etdiyi məhsullardan və texnologiyalardan istifadə etməli olarıq» (Avstraliya). «İnformasiya cəmiyyətinin formalaşmasına qoşulmamaq - ölkənin mədəniyyətinə çox neqativ təsir göstərər, çünki bu cür ölkə qlobal cəmiyyət tərəfindən udulmaq riskinə məruz qalır» (İslandiya).

Müasir dövrün bizə verdiyi şansdan istifadə edilməsi isə ölkədən ötrü «liderlik» (ABŞ), «iqtisadi yüksəliş» (Kanada), «şəbəkə kommunikasiyasının inkişafı sayəsində tərəqqi etmiş cəmiyyətin formalaşması» (Finlandiya), «daim təhsil alan cəmiyyətin formalaşması» (Avropa İttifaqı), «dövlətin idarə edilməsində vətəndaşların fəal iştirakı» (İrlandiya), «informasiyanın əldə edilməsinin asılı olacağı şəbəkələrə müraciət etmək imkanı» (Tailand), «milli birlik və milli özünüdərk hissinin

möhkəmlənməsi» (ABŞ) və sair uğurlar qazanılmasını təmin edə bilər. İnformasiya dövründə kitabxanaların informasiya, mədəni və ümumtəhsil müəssisələri kimi rolunun xeyli artması tamamilə qanunauyğun haldır. Müasir kitabxanaların fəaliyyətinin spesifikası onların çoxölçülü informasiya, mədəniyyət və təhsil məkanında, daha doğrusu, bu fəzaların kəsişməsində yerləşməsi ilə təyin edilir. Kitabxanalar yuxarıda sadalanan sahələrə xas olan vəzifə və funksiyaları özündə cəmləşdirən əlaqələndirici həlqə kimi çıxış edir. Müasir kitabxana-biblioqrafıya fəaliyyətinin unikallığı və eyni zamanda mürəkkəbliyi bu şəkildə təzahür edir. Məhz buna görə XXI əsr nəinki kitabxana sisteminin daha da inkişaf etdirilməsinin vacibliyini, həm də bu sahədə informasiya texnologiyalarının işlənib hazırlanması, tətbiq edilməsi və istifadəsi məsələlərinin müasir vəziyyətinin təhlil edilməsi, mövcud stereotiplərə yenidən nəzər salınması zərurətini irəli sürmüşdür.

Son illərdə informasiya ilə bağlı bütün sahələrdə kompyuter texnologiyalarının sürətli inkişafı bu dövrün səciyyəvi cəhətidir. Nəinki informasiya məhsullarının formaları və növləri barədə, həmçinin kitab nəşri, kitabların mühafızəsi, yayılması və informasiya xidməti sahələrində bir sıra müəssisələrin rolu və funksiyaları barədə təsəvvürlər dəyişir.

Fikrimizcə, kitabxana-informasiya strukturlarının və müvafiq texnologiyaların fəaliyyət meyillərinin öyrənilməsi onların real potensialı və perspektivləri barədə, bütövlükdə informasiya cəmiyyəti barədə daha tam təsəvvür əldə etməyə şərait yaradacaqdır. Kompyuter-telekommunikasiya mühitinin yaradılması və inkişafı elə bir fona çevrilmişdir ki, kitabxana prosesinin inkişafı bu fonda baş verir (və ya baş verməlidir). Belə bir mühitin yaradılması və inkişafının hətta bu sahədə çalışan çoxsaylı işçilərin təfəkkür və fəaliyyət tərzinə də təsirinin öyrənilməsi obyektiv zərurətə çevrilir.

Yeni başlanmış yüzilliyə qlobal informasiya əsri deyirlər. Bu cəmiyyəti qurmaq üçün, bir tərəfdən - xüsusən yüksək tex-

nologiyalar sahəsində, sənayenin müəyyən səviyyədə inkişafına nail olmaq, digər tərəfdən - vətəndaş cəmiyyətinin əsaslarını yaratmaq zəruridir. Bizim ölkəmizdən ötrü bu yol-qaçılmazdır, buna görə də informasiya cəmiyyətinə doğru hərəkəti müəyyənləşdirən baza oriyentirlərini dəqiq müəyyən etmək lazımdır.

Etiraf etmək lazımdır ki, az qala bütün kitablarda və tədris vəsaitlərində kitabxana barədə təsəvvür hələ də köhnə anlayış və sxemlər çərçivəsində qalmışdır. Halbuki, kitabxanaların fəaliyyət sahəsinə informasiya texnologiyalarının sürətlə tətbiq edilməsi kitabxanalar barədə təsəvvürü çoxdan dəyişməli idi. Bu gün ən müasir ədəbiyyatda dərc edilən məlumatlara əsasən, informasiya tərkib hissəsi nəinki ənənəvi xidmət sistemləri ilə «rəqabət aparmağa», hətta onları qabaqlamağa başlayır.

Əslində indi söhbət ölkəmizdə kitabxana işinin prinsipcə yeni konsepsiyasından - qloballaşma dövrünün xüsusiyyətlərinə, SSRİ dağılandan sonra yaranmış yeni ictimai-siyasi vəziyyətə uyğun mühakimələrdən irəli gələn konsepsiyadan gedir. Müasir kitabxanaların sosial fəaliyyətinin təkcə təşkilati-texnoloji kateqoriyalarla kifayətlənməyib, həm də fəlsəfi kateqoriyalardan istifadə etmək tələb olunur, çünki nisbətən yaxın vaxtlarda yaranmış yeni termini - «kitabxananın missiyası» terminini yalnız fəlsəfi kateqoriyaların köməyilə qiymələndirmək mümkündür.

Bu ifadəni əsas götürsək o, köhnə təcrübəni əsla rədd etmədən onu daha da təkmilləşdirən, tamamlayan və modernləşdirən yeni elementlərin yaranmış olduğu yeni kitabxana-informasiya mühitinin müasir mahiyyətini əks etdirir. Onu da qeyd etməliyik ki, bu halda söhbət keçmişin və gələcəyin müqayisəli xarakteristikalarından daha çox, son dövrlərdə yaranmış ictimai və sosial meyarların uyğunluğu barədədir. Buna qanunauyğun olaraq belə bir sual qarşıya çıxır: «müasir kitabxana» nə deməkdir? Çoxsaylı araşdırmalar göstərir ki, ictimai münasibətlərin tonusu, bir sıra yeni əlamətlər sistemi ilə ifadə edilən xarak-

terik cəhətlərin mahiyyəti nəzərəçarpacaq dərəcədə dəyişmişdir. Məhz bu xüsusiyyətlər müasir intelektual institutların obrazını yaradır. Belə institutlardan Azərbaycanda kitabxana işinin inkişaf konsepsiyası işlənib hazırlanır. Ümid edirik ki, kitab və burada dərc olunan empirik materiallar konsepsiyanın hazırlanmasında kömək edə bilər.

Azərbaycan kitabxanaları yuxarıda adı çəkilən Dövlət Proqramının həyata keçirilməsinə öz töhfələrini vermək üçün öz informasiya resurslarını istifadəçilərin tələbatına uyğunlaşdırmalıdır: onlar istər sənədlərin məzmununun aktuallaşdırılması, istərsə də elektron informasiya daşıyıcılarınm ahnması, beynəlxalq kommunikasiya sahəsində mövcud standartlara cavab verən, Azərbaycan və dünya məkanında informasiya mübadiləsi üçün yararlı olan müasir elektron məlumat bazaları yaradılması yolu ilə kitabxana fondlarının növ tərkibini modernləşdirməlidirlər.

Bütün bunlar, necə deyərlər, yaxın gələcəyin perspektivləridir. Bəs bu gün Azərbaycanın kitabxanaları və kitabxana işçiləri bu mühüm zirvəni fəth etməyə necə hazırlaşırlar? Apardığımız işin gedişində bu suala cavab axtarırdıq.

Ölkəmizin kitabxanalarının rəhbərləri və kitabxanaçılar arasında aparılmış tədqiqatın aktuallığına əsla şübhə yoxdur, çünki informasiya - iqtisadi, elmi-texniki və mədəni inkişafın əsas resursudur, informasiyanın nizamlanmış olması və ondan istifadə etmək imkanı isə informasiyanın yayılması ilə məşğul olan ictimai institutların və son nəticədə cəmiyyətin özünün mədəniyyətinə və demokratikliyinə dəlalət edir. Bu proseslərdə kitabxanaların rolu və funksiyaları əvəzedilməzdir. İnformasiya axınlarının strukturlaşdırılmış və nizamlanmış olması sayəsində, hər şeydən əlavə, istifadəçilərin informasiya mədəniyyətini formalaşır və deməli, onların ixtisas səviyyəsi də yüksəlir, bu isə ölkə üçün çox böyük əhəmiyyət kəsb edir.

Kitabxanaların inkişafı sahəsində dünya təcrübəsi göstərir ki, kütləvi kitabxanalar bu sahədə əsas işi öz üzərlərinə götür-

məlidirlər. Buna görə də bizim araşdırmanın əsas obyekti kitabxanalar oldu. Məhz bu kitabxanalar geniş oxucu kütləsinin informasiyadan istifadə edə bilməsini təmin edir, bütün kateqoriyalardan olan istifadəçilərə, müxtəlif müəssisə və təşkilatlara informasiya xidmətini həyata keçirilər.

Müasir kütləvi kitabxanalarda informasiya mərkəzlərinin-informasiya materiallarının toplanması, işlənməsi və mühafizə edilməsi üçün müvafıq qaydada təchiz edümiş xüsusi binaların yaradılması zəruridir.

Unutmaq olmaz ki, indi biz, mahiyyət etibarilə, yeni tarixi bir dövr yaşayırıq və bu mərhələdə əsas sosial vəzifə yenə də əvvəlki kimi qalmışdır: kitabxanalar milli ideyanm gerçəkləşdirilməsinə, mədəni irsi, bəşəriyyətin mənəvi yaddaşını, millətin sosial yaddaşını bir yerə cəmləşdirməyə və bu dəyərlərin nəsildən-nəslə ötürülməsinə şərait yaradan sivilizasiyanın hərəkətverici qüvvəsi kimi qalmaqla, cəmiyyət üzvlərinin həyatının keyfiyyətinin yüksəldilməsinə hər vasitə ilə kömək etməlidirlər.

Bir sual yenidən ön plana çıxmışdır: kitabxanalar nədir? Onlar yalnız mədəniyyətin rəmzidir, yoxsa sənədlərin real toplusu, kitab anbarıdır, yoxsa informasiya müəssisəsi? Bu anlayışlar arasında əlaqə varmı və əgər varsa, həmin əlaqə nə dərəcədə güclüdür? Bu məsələnin konsepsiyasını işləyib hazırlayarakən biz onu əsas götürmüşük ki, hər bir cəmiyyətdə və hər bir dövrdə kitabxanaların qarşısında müəyyən məsələlər qoymuş, ona konkret tapşırıqlar verilmişdir. Kitabxananın informasiya, mədəni-maarif, təhsil və digər məsələlərlə bağlı funksiyaları ən qədim dövrlərdən mövcud olmuşdur. O ki, qaldı həmin vəzifələrin inkişaf dərəcəsi, onların konkret məzmunu, konkret zaman kəsiyində ayrı-ayrı funksiyaların üstünlük dərəcəsi, bunlar başqa məsələdir.

Aparılmış tədqiqatlar göstərdi ki, kitabxana ictimaiyyəti bu gün bütün dünyada baş verən ən yeni proseslərdən geri qalmağın yolverilməz olmasını yaxşı başa düşür, çünki bir sıra

problemlərin həlli yolu olan informasiyalaşma sayəsində kitabxanalar cəmiyyətin və ən başlıcası zamanın tələblərinə müvafiq inkişaf etmək imkanı qazanırlar.

Aparılmış tədqiqatın nəticələrinə əsasən bu nəşri hazırlamaqda əsas məqsəd - cəmiyyətə Azərbaycan kitabxanalarının bugünkü vəziyyəti barədə informasiya vermək, gələcək üçün strategiyanı müəyyənləşdiımək idi. Aparılmış böyük və gərgin işin əsas vəzifəsi - kitabxanaların inkişaf xüsusiyyətlərini üzə çıxarmaq, yerlərdə bu sahədə işlərin vəziyyətini təhlil etmək idi.

Bu nəşr yeni - III minilliyin əvvəlində müxtəlif idarə tabeliyində olan Azərbaycan kitabxanalarının mənzərəsini yaratmaq və mövcud meyilləri açıqlamaq üçün göstərilən ilk cəhddir.

Azərbaycanda kitabxana işinin vəziyyəti barədə məlumatlar əldə edildikdən sonra həmin məlumatlar əsasında bu işin ən mühüm məqamlarını və gələcək inkişaf yollarını müəyyənləşdirmək mümkündür.

# ***Birinci hissə***

## TƏDQİQATIN KONSEPSİYASI VƏ KONTEKSTİ

Hazırda Azərbaycanda fəaliyyət göstərən kitabxanalar sistemi müxtəlif tipli və müxtəlif növlü kitabxanaları əhatə edir. Fondunun həcminə görə Azərbaycanda ən böyük kitabxana M.F.Axundov adma Azərbaycan Milli Kitabxanası, Respublika Elmi-texniki Kitabxanası və Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanasının adını qeyd etmək olar. Bundan başqa, müxtəlif dövlət müəssisələrinin, nazirlik, idarə, təhsil və elm müəssisələrinin kitabxanaları, siyasi partiya və birliklərin, qeyri-hökumət və qeyri-dövlət təşkilatlarının kitabxanaları fəaliyyət göstərir. Penitensiar müəssisələrin kitabxanaları isə qapalı kitabxanalardan ibarət ayrıca bir şəbəkədir. Azərbaycan ərazisində xarici dövlətlər tərəfindən maliyyələşdirilən kitabxanalar, səfirliklərin, müxtəlif xeyriyyə fondlarının kitabxanaları da fəaliyyətə başlamışdır.

Digər tərəfdən, əvvəllər çox geniş imtiyazlardan istifadə edən kitabxana şəbəkələri, məsələn, Sov.İKP siyasi maarif evlərinin və siyasi maarif kabinələrinin kitabxanalar şəbəkəsi, bir sıra həmkarlar ittifaqlarının kitabxanaları daha fəaliyyət göstərmir. Bəzi sahə və idarə tabelikli kitabxanalar (sənaye, nəqliyyat, rabitə sahələrinə daxil olan kitabxanalar) isə artıq mövcud deyildir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin tabeliyində olan kütləvi kitabxanalar şəbəkəsi daha geniş və daha çoxşaxəlidir.

Respublikada Təhsil Nazirliyinin kitabxana-informasiya şəbəkəsi də genişdir. Burada ali və orta ixtisas təhsili sahəsinə aid kitabxanalar ayrıca bir sistem təşkil edir. Universitetlərin,

akademiyaların, institutların, kolleclərin kitabxanaları bu sistemə daxil edilir. Ümumtəhsil sistemində də çoxsaylı kitabxanalar fəaliyyət göstərir. Litseylərin, gimnaziyaların kitabxanaları bu qəbildəndir.

Tədqiqat zamanı ilk dəfə olaraq, yalnız Azərbaycandan və postsovet məkanının bəzi regionlarından ötrü səciyyəvi olan, qaçqınların və məcburi köçkünlərin məskunlaşdığı düşərgələrdə yerləşən kitabxanalar da əhatə edilmişdir. Həmin kitabxanaların istifadəçiləri erməni təcavüzü nəticəsində həmişəlik əldən çıxmış çox böyük həcmdə kitab irsindən məhrum olmuşdur. Ümumiyyətlə, erməni işğalı nəticəsində zəbt olunmuş Azərbaycan rayonlarında məhv edilmiş kitabxanalarımız və onların resursları haqqında tədqiqat işləri aparılmış və tədqiqatın nəticəsi olaraq Mədəniyyət və Turizm Nazirliyinin layihəsi əsasında «Dağıdılmış sərvətlər, məhv edilmiş kitabxanalar» adlı nəşr 3 dildə (Azərbaycan, rus, ingilis) ictimaiyyətə təqdim olunmuşdur.

Penitensiar müəssisələrin kitabxanalarında da ilk dəfə sorğu aparılmış, bu sorğu nəticəsində yaxın gələcəkdə həmin müəssisələrin kitabxanalarında işin taktikasın müəyyən etmək üçün maraqlı material toplanmışdır.

AMEA-nın sistemində elmi tədqiqat işlərinə xidmət edən kitabxanaların iri şəbəkəsi, o cümlədən yuxanda adını çəkdiyimiz Milli Elmlər Akademiyasının Mərkəzi Elmi Kitabxanası, eləcə də elmi təqiqat institutlarının kitabxanaları öz fəaliyyətlərini davam etdirir.

Analogiyalar apara bilmək üçün Şirvan, Gəncə və Mingəçevir şəhərlərində fəaliyyət göstərən bir hərbi hissənin, bir neçə musiqi məktəblərinin və türk litseylərinin kitabxanalarında seçmə üsulu ilə tədqiqatlar aparılmışdır.

Problemin öyrənilməsinə yanaşma sistemində bunu əsas götürmüşük ki, söhbət müasir oxucunun və kitabxanaçının öyrənilməsi barədədir. Problemin mahiyyəti ondan ibarətdir ki, yeni

şəraitdə cəmiyyətin tələbatı, dövlət siyasəti və ölkədə səmərəli kitabxana sisteminin mövcud olması üçün real imkanlar arasında ziddiyyət və ya ən azı uyğunsuzluq vardır.

Problemin elmi aspekti ondan ibarətdir ki, yeni tələblər kitabxana işinin yeni texnologiyasının yaradılması zərurətini irəli sürür. Müasir oxucuların tələbatı dəyişmişdir, lakin bu dəyişikliklərin necə baş verdiyini və onların dərəcəsini aydınlaşdırmaq lazım idi. Məhz belə bir vaxtda zəruri qradasiyalara və obyektiv faydalı cəhətlərə riayət etmək şərtilə əvvəlki təcrübədən istifadə etməyin zəruri olması məsələsi meydana çıxmışdır. Buna görə də tamamilə qanunauyğun haldır ki, ideal kitabxananın, yəni bizim arzu etdiyimiz kitabxananın missiyası ilə real kitabxananın funksiyası - sənədlər fondunun formalaşdırılması və qorunub saxlanması, bu sənədlərin istifadəçilərə təqdim edilməsi, «bəşəri yaddaşın» qorunub saxlanması və nəsildən-nəslə ötürülməsi kimi funksiyalar arasında əlaqəni heç olmazsa fikrən həyata keçirmək zərurəti yaranır.

Başqa sözlə desək, qarşımıza qoyduğumuz məqsəd - bu amillərin mövcudluğunu və onların qarşılıqlı təsirini təhlil etməklə, müasir dövrdə kitabxanaların missiyaları, sosial funksiyaları, sosial rolu və inkişaf prioritetləri arasında nisbəti aydınlaşdırmaqdan ibarət idi.

Dövlət Proqramını işləyib hazırlayarkən onu da nəzərə almışıq ki, kitabxanaların bütün fəaliyyət oriyentirlərinin dəyişməsi ilə nəticələnmiş dəyişkən sosial-iqtisadi və mədəni şərait əsaslı struktur-funksional dəyişikliklərin zəruri olmasım şərtlərdirmişdir.

Kitabxana-informasiya texnologiyaları cəmiyyətinə qədəm qoyulması, bir sıra mürəkkəb məsələlərin həlli ilə bağlıdır.

Əsas konseptual ideyaların biri ondan ibarət idi ki, kitabxanalar informasiya cəmiyyətinə «calaq» kimi daxil deyildirlər. Onlar cəmiyyətin informasiyalaşmış cəmiyyətə çevrilməsinə şərait yaradan sürətləndiricilər hesab edilməlidir. İndiki mərhə-

lədə biz kitabxana işinin inkişafının məhz bu əsas meylini üzə çıxarmalı idik.

Belə bir faktı əsas götürürdük ki, sabit bazar iqtisadiyyatına doğru irəliləyişimiz nə qədər mürəkkəb və çətin olsa da, əsas iqtisadi göstəricilərin pozitiv dinamikası nəzərə çarpır, informasiya- kommunikasiya texnologiyaları durmadan inkişaf edir. Cəmiyyətin informasiyalaşma dərəcəsi artmışdır, insanların kompyüter savadı get-gedə artır. Bəs bu nailiyyətlərin əldə edilməsində kitabxanaların da xidməti olmuşdurmu və əgər olmuşdursa, nə dərəcədə olmuşdur. Bu məsələləri də aydınlaşdırmaq lazım idi. Əslində kitabxanaların informasiya və təhsil mərkəzləri kimi səciyyələndirilməsi onların internet-mərkəzlər kimi, elektron xidmətlər və hüquqi informasiya mərkəzləri kimi nə dərəcədə inkişaf etməsindən asılıdır. Bu sonuncu məsələ ilə əlaqədar kitabxanaların öz fəaliyyətlərini hüquqi məkan çərçivəsində, özü də beynəlxalq hüquq normaları nəzərə alınmaqla həyata keçirmələri və planlaşdırmaları üçün müvafiq qanunlardan və normativ aktlardan nə dərəcədə istifadə etmələrini də aydınlaşdırmalı idik. Bu, kitabxanaların fəaliyyətinin həmin sahəsinə müəyyən implus vermək üçün vacib idi.

Belə bir fikirlə biz də razılaşırıq ki, kitabxanaların sənədli paradiqmasınının mütləqləşdirilməsinə, yəni müəyyən sənədin kitabxana fondunda fiziki cəhətdən mövcudluğunun zəruri şərt olmasına əsaslanan ənənəvi konsepsiyanı yenidən nəzərdən keçirməyin vaxtı yetişmişdir.

Tədqiqatı aparmağa sövq edən bir məqam da ondan ibarət idi ki, bu gün kitabxananın və onun əsas funksiyalarının definisiyası həm kitabxanaşünaslığın, həm də informasiya elmlərinin mühüm müddəalarına aiddir. Planlaşdırdığımız tədqiqat kitabxana-informasiya fəaliyyətinin məzmununu və qarşılıqlı əlaqələrini, onun məqsədlərini, prinsiplərini, işin keyfiyyətini qiymətləndirmə texnologiyasının səmərəlilik meyarlarını müəyyən

etmək üçün kitabxananın mahiyyəti və onun əsas funksiyaları barəsində düzgün təsəvvür yaratmaq məqsədi güdürdü.

Təbii ki, bu sahədə komplektləşdirmənin profilinin dəyişməsi və varislik prinsipinin pozulması da nəzərə alınmışdır. Məlum olduğu kimi, komplektləşdirmə sahəsində yeni praktikanın formalaşması keçid dövrünün irəli sürdüyü məsələlərə oriyentasiya etməklə həyata keçirilir. Lakin bu halda bir məsələ yenə də öz aktuallığını saxlayır: kitabxana strukturlarının inkişafını təmin etmək üçün yaradılmış ənənəvi fondlardan tam imtina etməyə dəyərmi? Fikrimizcə, bu halda fondların formalaşmasında ağlabatan hədlər daxilində optimal varislik prinsipinin qorunub saxlanmasından danışmaq yerinə düşər. Yaranmış təşkilati strukturdan, sovet sistemi şəraitində olduğu kimi, tam imtina edilməsi isə, bizim fikrimizcə, funksional bölmələr formasına «xalis» keçidlə məhdudlaşmamalı, yaşlı nəslə mənsub kitabxanaçıların şəxsi təcrübəsi və ya onların özlərindən daha yaşlı nəsildən əxz etdikləri təcrübə şəklində bu sahəyə xas olan formalar qorunub saxlamaqdır.

Hər halda, bu tədqiqat üçün təşkilati baza olmuş kitabxanaların iş təcrübəsi göstərir ki, son illərdə komplektləşdirmə, kitabxana fondlarının işlənməsi, saxlanması, onlara xidmət edilməsi və məsləhət-biblioqrafiya işləri klassik və yeni elementlərin əlaqələndirilməsi əsasında həyata keçirilir. Çevik formalardan istifadə etmək, oxucuların tələbatını daha səmərəli təmin etmək cəhdləri ümumən özünü doğruldur.

Biz bir halı da nəzərə almışıq ki, yaxın keçmişdə uzun illər boyu həyata keçirilmiş ideoloji kampaniyalar xüsusən böyük və universal kitabxanaların fəaliyyətində dərin izlər qoymuşdur. Onilliklər boyu hədsiz pərakəndə vəziyyətdə fəaliyyət göstərən idarə tabelikli və ixtisaslaşdırılmış, lakin bununla bərabər tam müstəqil olan kitabxana sistemləri kitabxana işçilərinin əksəriyyətinin təfəkküründə və iş praktikasında çox dərin iz qoymuşdur. Bəlkə də bu faktlar yalnız təhtəlşüur səviyyəsində təsbit

edilmişdir, lakin faktlar göz qabağındadır. Maraqlıdır ki, keçmişin bu cür təsiri gənc nəslə mənsub olan həmkarlarımızın təfəkkür və fəaliyyət tərzində də hiss edilirdi.

Bununla əlaqədar, tədqiqat qrupunun işinin xarakterində ciddi dəyişikliklər edilməli oldu. Hər halda, bir daha yəqin etdik ki, bu problemin həllinə ilkin «zondlama» - seçmə yolu ilə ayırdığımız bir neçə kitabxana obyektinin öyrənilməsi yolu ilə yanaşmaqda səhv etməmişik. Əvvəlcədən planlaşdırılmayan bu əlavə tədbirlər özlərini tamamilə doğrultdular: həmin tədbirlərin nəticələri bizi məcbur etdi ki, işə münasibət konsepsiyasını anket suallarının məzmunundan daha çox, bütövlükdə problem səviyyəsində yenidən nəzərdən keçirək. Məsələn, məlumatların işlənməsi zamanı oxucuların tələbatının dəyişmə dinamikasına, yeni informasiya mühitinin formalaşmasının müxtəlif tərkib hissələrinə, kitabxanalara gələn adamlarla söhbətlərə, onların arzu və təkliflərinə, bu müəssisələrin müstəqillik dərəcəsinə və başqa amillərə daha artıq diqqət yetirməyə başladıq.

Hətta ilkin xarakterli bəzi məlumatların təhlili bizə ilk dəfə olaraq, informasiyanın analitik-sintetik işlənməsi üçün mürəkkəb çoxpilləli sistemin illər boyu göstərdiyi təsirin aradan qaldırılması ilə bağlı məsələlərlə üzləşdirdi. İnformasiya təminatı sahələrinə Sovet imperiyasının təsiri fenomenini məxsusi araşdırmağı biz öz qarşımıza bir vəzifə kimi qoymamışdıq, lakin bu barədə heç nə deməmək də olmaz, əks halda müasir kitabxanaların qarşılaşdığı problemləri başa düşmək çətin olacaq. Axı idarə tabeliyində olan, ixtisaslaşdırılmış və universal kitabxanaların işinin xaraktertində, məzmununda və üslubunda aşkar etdiyimiz fərqlər xeyli dərəcədə məhz bu faktla izah edilir. Ona görə də, əgər bu araşdırmanın yekunlarına əsasən respublikanın kitabxana sisteminin idarə edilməsi praktikasına müəyyən dəyişikliklər edilərsə (hər halda araşdırmanın nəticələri buna ümid etməyə əsas verir), həmin dəyişikliklər həm fondların tərkibinə, həm kataloqların təşkil edilməsi və idarə olunması qaydalarına,

həm də oxuculara xidmət və kitabxanaçıların özlərinin fəaliyyəti məsələlərinə aild olacaqdır. Sözügedən səbəblərin göstərilməsi kitabxanaçıların tutduqları vəzifələrə müvafiq olub-olmamasını qiymətləndirmək üçün əsas ola bilər.

Görülmüş işin bəzi yekunlarını təhlil edərək gəldiyimiz əsas qənaət ondan ibarətdir ki, kitabxanaların fəaliyyətində mövcud olan bütün problemlərə və çoxsaylı nöqsanlara baxmayaraq, onlar müasir dövrə möhkəm «bağlanıblar». Kitabxanaların oriyentasiya etdiyi şəxslər dairəsinin, onların müstəqillik dərəcəsinin, sosial, siyasi, mədəni, ideoloji və ola bilsin ki, hətta mənəvi atmosferdə də əsaslı dəyişikliklərə məruz qalması isə başqa məsələdir.

Təqdim edilən tədqiqat kitabxanalara obyektiv tələbatın real vəziyyətini və həmin tələbatın nə dərəcədə ödənilməsini aydınlaşdırmağa yönəlmişdir. Məqsədimiz bunu aydınlaşdırmaqdan ibarət idi: kitabxanaların imkanlarını necə genişləndirmək və gücləndirmək lazımdır ki, onlar təşkilatların və kitabxana informasiyasından istifadə edən digər istehlakçıların sorğu və tələbatını təmin etməyə hazır olsunlar.

Biz elə təsəvvür edirdik ki, artıq 13-15 il davam edən keçid dövründən sonra həmin sorğuların özləri də, o cümlədən obyektiv «dəyişdirici» səbəblər üzündən, deformasiyaya məruz qalmışdır. Televiziyanın, İnternetin və mətbuatın geniş yayıldığı rayonlarda kitabxanaların cüzi imkanlarından istifadə etməyə ehtiyac duyulmur.

Burada söhbət, ərazi və sahə mənsubiyyətli kitabxanaların real vəziyyəti, onların yuxarı təşkilatlarla qarşılıqlı münasibətləri, kitabxanaların işinin lazımi səviyyədə həyata keçirildiyi, yaxud əksinə, bu işin obyektiv tələblərə müvafiq olmadığı, lakin həmin kitabxanaların əməkdaşlarının dediyinə görə, hər şeyin qaydasında olduğu idarələrin real vəziyyəti barədə idi. Bu vəziyyət oxucuların özlərinin fikirlərinin öyrənilməsi ilə eyni vaxtda tədqiq edilirdi.

Tədqiqatın predmeti kitabxanaların fəaliyyəti və oxucuların davranışı məsələsidir.

Araşdırmanı həyata keçirmək məqsədilə xüsusi qrup yaradılmışdır. Bu qrupa tədqiqatın bilavasitə iştirakçılarının daxil olması toplanmış informasiyanın yüksək dərəcədə etibarlı və obyektiv olmasını təmin edirdi, buna görə də əlavə monitorinq keçirməyə ehtiyac yox idi.

Doldurulmuş sual kitabçalarındakı bütün məlumatlar xüsusi bazaya daxil edilir, kodlaşdırılır və məlumatın keyfıyyəti yoxlanılırdı.

Planlaşdırdığımız və həyata keçirdiyimiz tədqiqatların məqsədi - müxtəlif səviyyəli oxucu sorğularmdakı real meyilləri müəyyən və bunun əsasında, kitabxanaların fəaliyyətinin təkmilləşdirilməsini, bir tərəfdən - bu sorğuların təmin edilməsinə, digər tərəfdən - sorğuların formalaşdırılmasına istiqamətləndirməkdən ibarət idi.

Sorğu nəticələrinin analiz metodikasmın mahiyyəti ondan ibarət idi ki, ilk növbədə respondentlərin status xarakteristikaları, o cümlədən respondentlər barədə demoqrafık və proffesional məlumatlar, yəni informasiyanın kimin tərəfindən göndərilməsi və kimə ünvanlanması müəyyən edilsin.

Ərazi və idarə kəsiklərində kitabxana xidməti sisteminin real vəziyyətində mövcud problemlər istər kitabxana işçilərinin, istərsə də kitabxana xidmətlərindən istifadə edənlərin mövqeyindən öyrənilmişdir. Ölkədə kitabxana işinin inkişaf perspektivlərinə bu iki nöqteyi-nəzərin müqayisə edilməsi analizin son mərhələsi olmuşdur. Başqa sözlə desək, kitabxanaların fəaliyyətini yaxşılaşırmaq üçün kitabxana işçilərinin özlərinin nə etmək istədikləri və nə edə biləcəkləri, eləcə də kitabxana informasiyasından istifadə edənlərin bu sahədə nə gözlədikləri müəyyənləşdirilmişdir.

Məsələyə bu cür yanaşma əsasında kitabxana xidmətlərinin təqdim edilməsi mexanizmini təkmilləşdirmə imkanları, o

cümlədən yeni informasiya texnologiyalarından istifadə etməklə müasir kitabxana menecmenti ətraflı təhlil edilmişdir.

Kitabxana işçilərinin peşəkar inkişaf imkanlarının müxtəlif amillərlə məhdudlaşdırılması nəzərə alınmaqla bu imkanlar da tədqiq edilmişdir.

Həmin sxem üzrə kitabxana işçilərindən kimin peşəkar inkişafa hazır olması və kimin buna hazır olmaması məsələsini aydınlaşdırmaq mümkündür.

Aparılmış analizin nəticələri nəzərdə tutulan tədbirlər barədə bir sıra obyektiv rəy və tövsiyələr söyləməyə imkan vermidir. Təklif edilən şərtlər paketini üç hissəyə bölmək olar: 1) kitabxanaların bağlanmasına və böhranlı vəziyyətə düşməsinə yol verməmək üçün təxirəsalınmaz tədbirlər; 2) kitabxana xidmətlərinin istifadəçilərinə cari xidmətin yaxşılaşdırılması ilə bağlı xidmətlər; 3) Azərbaycanda kitabxana işinin müasir standartlar səviyyəsində inkişaf etdirilməsi və onun beynəlxalq kitabxana sistemlərinə inteqrasiya etməsi üçün perspektiv proqram tədbirləri.

Tədqiqatın vəzifəsi kitabxana sistemində total böhran olub-olmadığını aydınlaşdırmaqdan ibarət idi. Məsələ burasındadır ki, kitabxanalardan pulsuz istifadə edilməsi halları, mübahisəsiz olmasa da, yeganə üstünlük kimi qalır. Hərçənd, kitabxanaların istifadəçi auditoriyası dəyişir. Bu xidmət növü təhsil, fundamental elmlər və asudə vaxt kimi sahələrlə, yəni informasiya əsasında qəbul edilən qərarların dəyəri minimal olan sahələrlə məhdudlaşır.

Tədqiqatm vəzifəsi dəyişkən dünyada kitabxanaların öz mövqelərini qoruyub saxlamaları üçün onların nə etməli olduqlarını aydınlaşdırmaqdan ibarət idi. Bu mənada kitabxanalar özləri dəyişməlidirlər və məhz həmin dəyişikliklərin formalarını aydınlaşdırmaq lazımdır. Biz əsas diqqəti yüksək texnologiyaların nailiyyətlərinə uyğunlaşma yollarının öyrənilməsinə yönəltmişik. Kitabxana sisteminin həmin sistemdə baş verən pro-

seslərin kompyüterləşdirilməsinə, yüksək texnoloji sistemlərin, elektron kitabxanaların yaradılmasına nə dərəcədə hazır olmasını aydınlaşdırmaq, tamamilə yeni xidmət formaları təklif etmək lazımdır.

Məhz bu məqamda əhalinin əhatə baxımından ən kütləvi xidmət sahəsində - informasiya, təhsil və mədəniyyət mərkəzinə çevrilməli olan kitabxanalarda işləyəcək diplomlu mütəxəssislər hazırlanmasına yeni tələblər obyektiv şəkildə qarşıya çıxır.

Biz qəti yəqin etdik ki, kitabxanaların işinə yeni münasibət onun funksiyaları barədə nəzəri təsəvvürlərin dəyişməsi ilə, informasiya fəaliyyətinin idarə edilməsi və hüquqi tənzimlənməsi məsələlərinə münasibətin dəyişməsi ilə müşayiət olunacaqdır.

Əsas vəzifə ondan ibarətdir ki, kitabxanaların statusunun, rolunun və maddi səviyyəsinin yüksəldilməsini təmin etmək üçün cəmiyyətin və kitabxana- informasiya texnologiyalarının inkişafının müasir meyilləri aydınlaşdırılmalıdır. Ola bilsin ki, kitabxana işinin idarə edilməsi sahəsində dövlət siyasətinin işlənib hazırlanması mövcud resurslardan istifadə edilməsi üçün dövlət orqanlarının siyasətini təkmilləşdirməyə kömək edəcək və xidmətin keyfiyyət səviyyəsini yüksəltməklə daha yüksək informasiya sorğularmın formalaşmasına təsir etməyə imkan verəcəkdir.

# *İkinci hissə*

## AZƏRBAYCAN KİTABXANALARININ PANORAMI

**a) müasir kitabxananın oxucuları**

Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi üçün böyük əhəmiyyət kəsb edən indiki dövrdə yeni praktiki və fundamental biliklər, operativ əldə edilən etibarlı informasiya cəmiyyəti üçün həmişəkindən daha artıq dərəcədə gərəklidir. Əhalinin böyük əksəriyyəti üçün bu tələbat yalnız ümumi istifadə üçün nəzərdə tutulan dövlət kitabxanaları vasitəsilə təmin edilə bilər, çünki mədəniyyətdən, biliklərdən və informasiyadan pulsuz istifadə etməyə imkan verən müəssisə kimi hələ də qalmış yeganə qurum - kitabxanadır.

Tədqiqatın gedişində bu qənaətə gəlmişik ki, oxuculara aid məlumatların və onların tələblərini öyrənməyə dair sistematik tədqiqat işi aparılmadan kitabxananın sosial rolunu başa düşmək qeyri-mümkündür. Bu cür araşdırmaların dünyada geniş yayılması da bu fikri təsdiq edir.

Apardığımız tədqiqat ictimaiyyətdə və dövlət orqanlarında böyük marağa səbəb olmuşdur. Aylarla davam etmiş bu işin nəticəsində topladığımız zəngin empirik material bu məcmuənin oxucularına təqdim edilir.

Bu gün Azərbaycan məktəbliləri və tələbələrinin mütaliə ilə praqmatik məqsədlər üçün məşğul olmaları get-gedə səciyyəvi hala çevrilir. Onların oxuduğu ədəbiyyatın 70 %-dən çoxu tədris proqramları ilə bağlıdır.

Bugünkü kitabxana - mədəni və mənəvi mərkəzdir, şəxsiyyəti inkişaf etdirən məkandır, ünsiyyət üçün, asudə vaxtı səmərəli keçirmək üçün müvafiq imkanları olan bir yeridir. Kitabxana öz fəaliyyətində onun xidmətlərindən istifadə edən geniş

